# Dənizkənarı Bulvar İdarəsi PHŞ

## 31.12.2023-cü il tarixinə konsolidə edilmiş maliyyə hesabatları və Müstəqil Auditor Hesabatı

2024

## MÜSTƏQİL AUDİTOR HESABATI

"Dənizkənarı Bulvar İdarəsi" PHŞ

**Şərti rəy**

Dənizkənarı Bulvar İdarəsi PHŞ-nin (bundan sonra İdarə) 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət konsolidə edilmiş maliyyə hesabatlarının auditi aparılmışdır.
"Şərti rəyin bildirilməsi üçün əsas" bəndində açıqlanan məsələlərin mümkün təsirləri istisna olmaqla, hazırkı maliyyə hesabatları 31 dekabr 2023-cü il tarixinə İdarənın maliyyə vəziyyətini, həmin tarixdə bitən il üçün maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa uyğun olaraq düzgün və ədalətli şəkildə əks etdirir.

**Şərti rəyin bildirlməsi üçün əsas**
Audit Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparılmışdır. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün müəyyən etdiyi "Etika məcəlləsinin" (MBESŞ) tələblərinə uyğun olaraq biz İdarədən asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.
Əlavə edilmiş maliyyə hesabatları İdarənın 31 dekabr 2023-cü il tarixinə konsolidə edilmiş maliyyə vəziyyətini, habelə konsolidə edilmiş maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini sair uzunmüddətli öhdəliklər ilə bağlı məsələlər istisna olmaqla əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəhbərliyin və maliyyə hesabatlarının idarə edilməsi üzrə məsul tərəflərin öhdəlikləri**
Rəhbərlik bu maliyyə hesabatlarının Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa uyğun olaraq hazırlanmasına, obyektiv şəkildə təqdim edilməsinə, eləcə də, hesabatların saxtakarlıq və ya səhvlərdən irəli gələn əhəmiyyətli təhriflər olmadan tərtib edilməsi üçün zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırlayarkən rəhbərlik fəaliyyətin fasiləsizliyi prinsipi əsasında işini davam etdirmə potensialını qiymətləndirmək, müvafiq olduqda daimilik prinsipi ilə bağlı məsələləri açıqlamaq və rəhbərlik ləğv etmək və ya fəaliyyətini dayandırmaq istəyənədək, yaxud bunu etmək üçün real seçimi olmayanadək hesabatlılığın fəaliyyətin fasiləsizliyi prinsipi istifadə etmək üzrə məsuliyyət daşıyır.
İdarəçilik üzrə məsul tərəflər maliyyə hesabatların hazırlanması və təqdim edilməsi prosesinə nəzarət etmə öhdəliyi daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**
Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub – olmadığına dair kafi əminlik əldə etmək və rəyin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.
Beynəlxalq Audit Standartları əsasında aparılan audit yoxlamasının bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik. Biz həmçinin:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların biləkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində

sui-istifadə hallarını nəzərdə tutur.

- Daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxil nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.
- Maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

İdarəedici Partnyor
E. Əliyev

Bakı şəhəri, Azərbaycan Respublikası

28.12.2024

**“Dənizkənarı Bulvar İdarəsi” PHŞ**
*31 dekabr 2023-cü il tarixinə bitən il üzrə*

## *PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT (konsolidə edilmiş)*

AZN

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Malların satışından və xidmətlərin göstərilməsindən daxilolmalar | | 3.123.833 | 3.171.974 |
| Digər gəlirlərdən daxilolmalar (subsidiya) | | 13.137.105 | 10.737.393 |
| Digər gəlirlərdən daxilolmalar | | 6.086 | - |
| **Əməliyyat fəaliyyətindən cəmi daxilolmalar** | | **16.267.024** | **13.909.367** |
| Mallar və xidmətlərə görə xaricolmalar | | (3.666.163) | (3.095.868) |
| İşçilərə və onların adından pul vəsaitlərinin ödənişləri | | (7.814.708) | (11.328.888) |
| Mənfəət vergisi ödənişi üzrə xaricolmalar | | - | (7.071) |
| Digər vergilərə görə xaricolmalar | | (964.089) | (60.264) |
| Əməliyyat fəaliyyətindən yaranan faiz üzrə xaricolmalar | | - | (38.443) |
| Digər ödənişlərə görə xaricolmalar | | (3.105.807) | (363.925) |
| **Əməliyyat fəaliyyətindən cəmi xaricolmalar** | | **(15.550.767)** | **(14.894.459)** |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **716.257** | **(985.092)** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin satışından pul vəsaitlərinin daxilolmaları | | - | 3.048.000 |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | (1.352.717) | (3.048.000) |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(1.352.717)** | **-** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | | 1.992.858 | 13.149.226 |
| Məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin xaricolmaları | | (1.925.026) | (10.485.645) |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **67.832** | 2.663.581 |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **(568.630)** | **1.678.489** |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkəti** | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | 7 | **2.551.462** | **872.973** |
| İl ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | | **(568.630)** | **1.678.489** |
| Xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | | 160 | **-** |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | 7 | **1.982.992** | **2.551.462** |

**İdarə Heyətinin Sədri**

**X. Ağalarov**

**Maliyyə və təminat şöbəsinin müdiri – baş mühasıb**
**E. İbrahimov**

M.Y.

**"Dənizkənarı Bulvar İdarəsi" PHŞ**
*31 dekabr 2023-cü il tarixinə bitən il üzrə*

## *KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT (konsolidə edilmiş)*

AZN

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəətvə ya zərər | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **65.210.662** | **308.184.019** | **(28.633.002)** | **344.761.678** |
| İl üzrə cəmi məcmu mənfəət və ya zərər | - | - | 2.612.622 | **2.612.622** |
| İl üzrə kapital ehtiyatları üzrə dəyişiklik | - | 2.180.097 | - | **2.180.097** |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **65.210.662** | **310.364.116** | **(26.020.380)** | **349.554.398** |

**İdarə Heyətinin Sədri**

**X. Ağalarov**

**Maliyyə və təminat şöbəsinin müdiri – baş mühasıb**
**E. İbrahimov**

**M.Y.**

**"Dənizkənarı Bulvar İdarəsi" PHŞ**

*31 dekabr 2023-cü il tarixinə bitən il üzrə*

## *MƏCMU MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT (konsolidə edilmiş)*

AZN

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 11 | 19.712.142 | 19.398.290 |
| Sair əməliyyat gəlirləri | 11 | - | 1.661 |
| **Cəmi gəlirlər** | | **19.712.142** | **19.399.951** |
| İnsan resursları üzrə xərclər | 12 | (11.811.477) | (11.324.672) |
| Amortizasiya xərcləri | 12 | (1.725.129) | (2.137.648) |
| Digər əməliyyat xərcləri | 12 | (3.559.085) | (5.837.544) |
| **Cəmi xərclər** | | **(17.095.691)** | **(19.299.864)** |
| **Əməliyyat mənfəəti və ya zərəri** | | **2.616.451** | **100.087** |
| Xarici valyuta əməliyyatları üzrə xalis xərc və ya gəlir | | (3.829) | 1.680 |
| **İl üzrə cəmi məcmu mənfəət və ya zərər** | | **2.612.622** | **101.767** |

**İdarə Heyətinin Sədri**

**X. Ağalarov**

**Maliyyə və təminat şöbəsinin müdiri – baş mühasib**
**E. İbrahimov**

**"Dənizkənarı Bulvar İdarəsi" PHŞ**
*31 dekabr 2023-cü il tarixinə bitən il üzrə*

## *MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT (konsolidə edilmiş)*

| | Qeydlər | 31 dekabr 2023-cü il | AZN<br>31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Qeyri-maddi aktivlər | 4 | 56.097 | 62.330 |
| Bina, qurğular və avadanlıqlar | 4 | 27.945.602 | 27.778.621 |
| Bitməmiş tikinti işləri | 4 | 323.698.804 | 323.987.336 |
| Bioloji aktivlər | 4 | 1.360.915 | 1.714.825 |
| İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | 10 | - |
| Uzunmüddətli debitor borclar | 6 | 12.827.920 | - |
| **Cəmi uzunmüddətli aktivlər** | | **365.889.348** | **353.543.112** |
| **Qısamüddətli aktivlər** | | | |
| Ehtiyatlar | 5 | 1.102.524 | 493.145 |
| Qısamüddətli debitor borcları | 6 | 172.540 | 214.637 |
| Verilmiş avanslar | 6 | 28.211 | 154.150 |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 7 | 1.982.992 | 2.551.462 |
| Verilmiş qısamüddətli borclar | | 10.000 | |
| Sair qısamüddətli aktivlər | 8 | 4.410.504 | 2.459.950 |
| **Cəmi qısamüddətli aktivlər** | | **7.706.771** | **5.873.344** |
| **CƏMİ AKTİVLƏR** | | **373.596.117** | **359.416.456** |
| | | | |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **Kapital** | | | |
| Ödənilməmiş nizamnamə kapitalı | | 65.210.662 | 65.210.652 |
| Kapital ehtiyatları | | 310.364.116 | 308.184.019 |
| Bölüşdürülməmiş mənfəət | | (26.020.380) | (28.633.002) |
| **CƏMİ KAPİTAL** | | **349.554.398** | **344.761.669** |
| | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Təxirə salınmış gəlirlər | 9 | 1.922.056 | 2.238.978 |
| Təxirə salınmış vergi öhdəlikləri | 9 | - | 1.768.287 |
| Sair uzunmüddətli öhdəliklər | 9 | 12.334.994 | 772.989 |
| **Cəmi qısamüddətli aktivlər** | | **14.257.050** | **4.780.254** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Alınmış avanslar | 10 | 17.401 | 7.084 |
| Ticarət və digər kreditor borclar | 10 | 9.767.268 | 9.867.449 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **9.784.669** | **9.874.533** |
| | | | |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **24.041.719** | **14.654.787** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **373.596.117** | **359.416.456** |

**İdarə Heyətinin Sədri**

**X. Ağalarov**

**Maliyyə və təminat şöbəsinin müdiri – baş mühasib**
**E. İbrahimov**

DƏNİZKƏNARI BULVAR İDARƏSİ

**M.Y.**